# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

## 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş müstəqil auditor rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- BMHS-na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi; və
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarını daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır;

- Cəmiyyətin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən ediiməsi və qarşısının alınması.

31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 02 mart 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

| | |
|---|---|
| **Müseyib Əliyev** | **Dürdanə Bayramova** |
| **İdarə Heyətinin sədri** | **Maliyyə Departamentinin direktoru** |
| 02.03.2018-ci il | 02.03.2018-ci il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |